# Rabindranat Taqor

Respublika .- 2025.- 9 avqust(№165).- S.12.



**Şair, dramaturq, rəssam, bəstəkar, filosof, Hindistan və Banqladeşin milli himnlərinin müəllifi, Şərqin ilk Nobel mükafatçısı Rabindranat Taqor... O, Benqaliyanın paytaxtı Kəlküttə (2001-ci ildən rəsmi olaraq Kəlkətə) şəhərində brəhmən nəslindən olan çox zəngin ailədə dünyaya gəlib. Ailənin 14-cü övladı - sonbeşiyi olan Rabindranatın babası Dvorkonat Taqor Benqaliyanın ən varlı və nüfuzlu zadəganlarından idi. Atası Devendranat Taqor isə hindlilərin milli mənlik şüurunun formalaşmasında mühüm xidmətləri olub.**

Rabindranat ilk şerilərini 8 yaşında yazıb. Bu yazılarda təbii bir uşaq şuxluğu, yüksək əhvali-ruhiyyə vardı. Lakin 14 yaşında ikən anasını itirən yeniyetmə ağır sarsıntı keçirərək özünə qapılıb və tədricən bu ovqat onun yazılarında da müşahidə olunmağa başlayıb. Yeniyetməlik çağlarından ilk şeir və hekayələrini "Qyanankur" jurnalında dərc etdirən Rabindranat böyük qardaşının nəşr etdirdiyi "Bharoti" (Bharat Hindistanın hind dilindəki adıdır) jurnalının ən fəal əməkdaşlarından olub. Seminariyadan sonra təhsilini Benqal Akademiyasında davam etdirən R.Taqor benqal dilinin, tarix və mədəniyyətinin mahir bilicisinə çevrilib. Ana dilindən başqa Hindistanın ən çox işlənən bir neçə dilini, həmçinin ingilis, sanskrit (qədim hind) dillərini, eləcə də fəlsəfə və riyaziyyatı öyrənib.

Dahi şəxsiyyət Mrinalina Debi adlı xanımla ailə qurub. Xanımı da brəhmən ailəsindən olub. Bu nikahdan onların beş uşağı - üç qız və iki oğulları dünyaya gəlib. Şairə gənclik dövründə ən çox şöhrət qazandıran, xanımına həsr edilmiş "Sevgilimin obrazı" adlı poemalar kitabı olub. M.Debi də yaxşı təhsil görmüş xanım idi və evlilikdən sonra ərinin təşviqi ilə böyük hind eposu "Ramayana"nı ingilis dilinə tərcümə edib.

R.Taqor daha çox şair kimi məşhurlaşsa da, o, həm də bir çox nəsr və dram əsərlərinin, həmçinin ilk benqal romanlarının müəllifi idi. O, uzunmüddətli dünya səyahətinə çıxaraq ABŞ və bir neçə Avropa ölkəsində olur. Bu illərdə yazıçı bütün dünyada məşhurlaşır, ingilis dilində nəşr edilmiş "Gitancali" kitabı Nobel mükafatına layiq görüldükdən sonra Avropanın, demək olar, bütün dillərinə tərcümə edilir. Böyük yazıçı olmaqla bərabər, həm də görkəmli bəstəkar olan R.Taqor öz şeirləri əsasında iki mindən artıq mahnı bəstələyib. Onun musiqisi lad sisteminə görə hind (ilk növbədə benqal) xalq musiqisinin motivlərinə əsaslanır. Bu məqamda onun yaradıcılığına aid daha bir əlamətdar cəhəti qeyd etmək yerinə düşər: R.Taqor dünyada yeganə sənətkardır ki, iki dövlətin - Hindistan və Banqladeşin himnlərinin müəllifidir. Onu da vurğulayaq ki, hər iki himnin həm mətni, həm musiqisi ona məxsusdur. Musiqi ilə yanaşı, təsviri sənət sahəsində də geniş yaradıcılıq diapazonuna malik olan Taqorun 2500-ə yaxın rəsm əsəri var. Ömrünün son dörd ilini ağır xəstəlikdən əziyyət çəkib, lakin axır günə qədər yaradıcılıq əzmindən qalmayan dahi şəxsiyyət 80 yaşında vəfat edib.

**Hazırladı:**
**Elenora HƏSƏNOVA,**
**"Respublika".**